# İşğaldan azad edilmiş rayonların polis şöbələrinin rəisləri həmin rayonların müvəqqəti komendantları təyin olunublar

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı rəhbər tutularaq Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun imzaladığı əmrlərlə işğaldan azad edilmiş rayonların polis şöbələrinin rəisləri həmin rayonların müvəqqəti komendantları təyin olunublar. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunan fərmandan irəli gələn digər vəzifələrin də icrası davam etdirilir.

Azərbaycan.- 2020.- 13 noyabr.- S.3.